





# Sürətli və dərin islahatlar kursu Nəsimi rayonunun sosial-iqtisadi inkişafına böyük təkan verib

**Tariximizə sürətli və dərin islahatlar dövrü kimi həkk edilən 2017-ci ildə Azərbaycanda inkişafın davamlılığı təmin edilmiş, qlobal böhranın fəsadlarının qarşısı məqsədyönlü tədbirlərlə alınmışdır. Təhlükəsizlik, ictimai-siyasi sabitlik, iqtisadiyyatda davamlılıq və inkişaf kimi mühüm proseslərin təmini, dövlətçilikdə xalq faktorunun üstün mövqeyi, balanslaşdırılmış xarici siyasət ölkə rəhbərinin fəaliyyət prioritetləri olaraq dövlətimizin və xalqımızın əmin-amanlığını, tərəqqisini şərtləndirmişdir.**







## Prezident tapşırıqlarının icrası fəaliyyət prioritetidir

Dinamik inkişaf, infrastrukturun yeniləşdirilməsi, istehsal müəssisələrinin, iş yerlərinin yaradılması, geniş vüsət almış tikinti, quruculuq və abadlıq işləri ölkəmizin hər yerində olduğu kimi, ötən il Nəsimi rayonunda da uğurla davam etdirilmişdir. Paytaxtda əhalinin ən sıx yerləşdiyi rayonlardan biri olan Nəsimi mühüm uğurlara imza atır, rayonun görkəmi dəyişir, əhalinin normal yaşayış səviyyəsi təmin olunur, sosial problemlərinin həlli istiqamətində təqdirəlayiq tədbirlər keçirilir. Ümumilikdə ötən il Nəsimi rayonunun iqtisadi və sosial həyatında baş verən dəyişikliklər bütün sahələrdə yüksəlişlə müşayiət olunub. Rayonda sosial yönümlü tədbirlərə geniş yer verilməsi sakinlərin həyat səviyyəsinin yaxşılaşdırılmasına xidmət edir. İnşa edilən yeni obyektlər həm də turizmin inkişafına böyük imkanlar yaradır.

2017-ci ildə rayonda yerləşən bir sıra müxtəlif təyinatlı obyektlərin inşası, təmir-yenidənqurma işləri müvəffəqiyyətlə davam etdirilmiş, həmin obyektlərin açılışında Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev və Birinci vitse-prezident Mehriban xanım Əliyeva iştirak etmişlər. Ötən il fevral ayının 10-da Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev və xanımı Mehriban Əliyeva Bakı Dəmir Yolu Vağzalında yenidənqurmadan sonra yaradılan şəraitlə tanış olmuşlar. İyunun 25-də dövlət başçısı Bakıda Yusif Səfərov küçəsinə paralel salınan yeni yolun açılışında iştirak etmişdir. Sentyabr ayının 11-də Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev Bakının Nəsimi rayonundakı 268 nömrəli xüsusi məktəbdə əsaslı təmirdən sonra yaradılan şəraitlə tanış olmuşdur. Həmin gün Azərbaycan Respublikasının Birinci vitse-prezidenti Mehriban xanım Əliyeva "Qərənfil" körpələr evi-uşaq bağçasında Heydər Əliyev Fondunun dəstəyi ilə əsaslı təmirdən sonra yaradılan şəraitlə tanış olmuşdur.

Rayonun iqtisadi və sosial həyatında baş verən dəyişiklikləri əyani surətdə əks etdirən makroiqtisadi göstəricilər 2017-ci il ərzində əvvəlki ilin müvafiq dövrünün göstəricilərini xeyli üstələmişdir. Belə ki, rayonda 817520 min manatlıq və ya əvvəlki ilin müvafiq dövrü ilə müqayisədə 12 faiz çox sənaye məhsulu istehsal edilmiş, nəqliyyat sektorunda fəaliyyət göstərən müəssisələr tərəfindən ümumilikdə 367940 min manatlıq, rabitə müəssisələri tərəfindən isə 368810 min manatlıq və ya ötən ilin müvafiq dövrü ilə müqayisədə 3 dəfə çox rabitə xidməti göstərilmişdir.

Rayonun tikinti kompleksində iqtisadi və sosial sahələrin inkişafı üçün 556330,1 min manat məbləğində investisiyadan istifadə edilmişdir ki, bu vəsaitin də 341494,8 min manatı tikinti-quraşdırma işlərinin yerinə yetirilməsinə xərclənmişdir. Rayonun pərakəndə ticarət şəbəkəsindən əhaliyə 1305856,4 min manat məbləğində və ya əvvəlki ilin eyni dövrü ilə müqayisədə 26,6 faiz çox istehlak malları satılmışdır. Əmtəə dövriyyəsinin 99,8 faizi özəl sektorun müəssisələrinin payına düşmüşdur. Həmin dövr ərzində xidmət müəssisələri tərəfindən əhaliyə 613472 min manatlıq, yaxud 2016-cı ilin müvafiq dövrünün səviyyəsindən 27,9 faiz çox ödənişli xidmət göstərilmişdir. Rayonun iqtisadi və sosial sahələrində muzdla işləyənlərin orta aylıq əməkhaqqı 2016-cı ilin yanvar-noyabr ayları ilə müqayisədə 9,2 faiz artaraq 608 manat olmuşdur. Ötən il rayonda 5059 daimi iş yeri açılmışdır. Qeyd edək ki, Nəsimi rayonunun əhalisi 221 min nəfərə yaxındır.










## Abadlıq-quruculuq işləri geniş miqyas alır

Rayon icra hakimiyyəti tərəfindən ərazidə iqtisadi durumun yaxşılaşdırılması, dotasiyalardan asılılığın minimuma endirilməsi məqsədilə daxili imkanlardan istifadə etməklə sağlam biznes mühitinin formalaşdırılması, investisiyaların cəlb edilməsi, kiçik və orta sahibkarlığın inkişafı və əhalinin işgüzarlıq fəaliyyətinin artırılması üçün münbit şərait yaradılmışdır. Yerli infrastruktur layihələrin icra olunması, yeni istehsal və emal müəssisələrinin açılması, məşğulluq səviyyəsinin artırılması və əhalinin maddi rifahının yüksəldilməsi ilə bağlı verilmiş tapşırıqların icrasının təmin edilməsi, sərmayələrin yatırılması ilə bağlı zəruri tədbirlər həyata keçirilmişdir.

Azərbaycan Respublikası mülki mənzil, şəhərsalma və tikinti qanunvericiliklərinin tələblərinə əməl etməklə şəhərin ümumi görünüşünə xələl gətirən, qəzalı vəziyyətdə olan və mövcud şəhərsalma normalarına cavab verməyən XIX əsrin sonları və ötən əsrin əvvəllərində tikilmiş 16206 nəfərin yaşadığı 5771 mənzildən ibarət 226 yaşayış binasının və digər qeyri-yaşayış, sosial təyinatlı obyektlərin sökülərək yenidən qurulması istiqamətində işlərin təşkili üçün il ərzində rayon üzrə ərazilərə baxış keçirilmiş, sahibkarların prosesə cəlb olunması və layihələrin müzakirəsi işləri aparılmışdır. Bir sıra ünvanlar üzrə tikiləcək binaların ərazidə yerləşdirilməsinin planlaşdırma sənədləri və binaların layihəsi hazırlanmış, onların memarlıq hissələrinin Dövlət Şəhərsalma və Arxitektura Komitəsi ilə razılaşdırılması üçün işlər aparılmışdır. İl ərzində 60-dan çox təklifə baxılmış, 31 ünvanla bağlı layihə sənədləşmələri hazırlanaraq müvafiq qaydada razılaşdırılmışdır.

2017-ci il rayon ərazisində təmizlik, abadlıq və quruculuq işlərinin həyata keçirilməsi, yaşayış binalarının, evlərin istismar vəziyyətinin yaxşılaşdırılması və qorunması, binadaxili aşağı mühəndis-kommunikasiya qovşaqlarının etibarlı və təhlükəsiz fəaliyyətinin təmin olunması məqsədilə mühüm işlər görülmüşdür. Qış mövsümündə binaların istiliklə təmin olunmasına xidmət edən mühəndis qovşaqlarının texniki tələbə uyğun istismar olunması üçün ardıcıl tədbirlər həyata keçirilmişdir.

Mart ayının 17-də Nəsimi rayonunda yeni Logistika mərkəzi - Yaşıl market istifadəyə verilmişdir. Kənd təsərrüfatı məhsullarının tədarükü, saxlanması və satışı üzrə Logistika mərkəzinin tikintisi "2014-2016-cı illərdə Bakı şəhərinin və onun qəsəbələrinin sosial-iqtisadi inkişafına dair Dövlət Proqramı" çərçivəsində həyata keçirilmişdir. 1,6 ha sahədə yerləşən Yaşıl marketdə 1500 nəfərin işlə təmin olunması nəzərdə tutulmuşdur. Yaşıl marketdə 1000 ədəd piştaxta, 28 ədəd müasir tipli mağaza, 5 soyuducu kamera, 200 avtomobil üçün dayanacaq sahəsi mövcuddur.

Azərbaycan Respublikasının Birinci vitse-prezidenti Mehriban xanım Əliyevanın sədrliyi ilə 9 mart 2017-ci il tarixdə keçirilən müşavirədə verilmiş tapşırıqların icrası ilə bağlı Nəsimi rayonunda silsilə tədbirlər keçirilmişdir. Rayon ərazisində məskunlaşan 2373 ailə olmaqla 8713 nəfər məcburi köçkünün mənzil məişət şəraitinin yaxşılaşdırılması, onların işlə təmin olunmaları istiqamətində müvafiq tədbirlər həyata keçirilir. Müşavirədən sonra Nəsimi Rayon İcra Hakimiyyətinin təşəbbüsü ilə rayonun ən böyük müəssisələrindən biri olan "Bakı Tikiş Evi" SC-də görüş təşkil edilmiş, məcburi köçkünlərin işlə təmin olunması üçün yeni iş yerlərinin açılması istiqamətində müəyyən işlər görülərək bu müəssisədə 150 nəfərə yaxın məcburi köçkün işlə təmin olunmuşdur.

Nəsimi rayonunda insanların diqqətini yaşıllıqların qorunmasına yönəltmək istiqamətində silsilə ağacəkmə kampaniyaları, iməciliklər keçirilmişdir.

## Kaliforniyada "Heydər Əliyev günləri" uğurla keçdi

Nəsimi Rayon İcra Hakimiyyətinin ötən il beynəlxalq əməkdaşlığı da məhsuldar və əlamətdar olub. Belə ki, ümummilli lider Heydər Əliyevin anadan olmasının 94-cü ildönümü ərəfəsində icra hakimiyyətinin dəstəyi ilə 20 nəfərdən ibarət nümayəndə heyəti ötən ilin 5-15 may tarixlərində ABŞ-ın Kaliforniya ştatına səfər etmişdir. May ayının 6-da Los Anceles şəhərində qədim və nüfuzlu incəsənət məkanlarından olan "Orpheum Theater" konsert zalında ulu öndər Heydər Əliyevin xatirəsinə həsr olunmuş tədbir keçirilmişdir. Tədbirin proqramına çıxışlar, videoçarx nümayişi, konsert daxil idi. Tədbirdə Azərbaycanın Los Ancelesdəki baş konsulu, Los Anceles şəhərinin ictimaiyyətinin tanınmış nümayəndələri, rəsmilər və siyasətçilər, xarici diplomatlar, professorlar, mədəniyyət xadimləri, iş adamları və digər şəxslərdən ibarət iki min nəfərə yaxın insan iştirak etmişdi. May ayının 8-də San Dieqo şəhər şurasının sədri Myrtlel Cole ilə keçirilən görüşdə Azərbaycan xalqının ümummilli lideri Heydər Əliyevin anadan olmasının 94-cü ildönümü ilə bağlı tədbirlərin keçirilməsi, Bakı və San Dieqo şəhərləri arasında yaradılmış əlaqələrin Azərbaycan-ABŞ tərəfdaşlığına və iki xalqın yaxınlaşmasına xüsusi dinamika verməsi barədə fikir mübadiləsi aparılmış, San Dieqo şəhər şurasına RİH-nin hədiyyələri təqdim olunmuşdur. Həmin gün San Dieqo şəhərində Meyer İncəsənət Qalereyasında "Bakı şəhəri san dieqolu fotoqrafın gözü ilə" adlı fotosərgi keçirilmişdi. Nümayiş olunan fotoşəkillər Bakının tarixini və müasir memarlığını, onun multikulturalizm, etnik və dini müxtəlifliyini, eləcə də son bir neçə il ərzində Bakının sürətli inkişafını əks etdirirdi.

May ayının 9-da San Dieqo şəhərinin mərkəzində yerləşən Reqal Cinema Mərkəzində Azərbaycanın birinci xanımı, Heydər Əliyev Fondunun prezidenti Mehriban Əliyevanın və fondun vitse-prezidenti, filmin icraçı prodüseri Leyla Əliyevanın hərtərəfli dəstəyilə ərsəyə gəlmiş "Əli və Nino" bədii filminin premyerası keçirildi. Qədim Bakının mənzərələrini göz önündə canlandıran, Azərbaycanın müstəqillik mübarizəsini böyük ustalıq və peşəkarlıqla təqdim edən bu film tamaşaçılarda dərin hisslər oyatdı. May ayının 10-da San Dieqonun ən tanınmış və qədim incəsənət mərkəzlərindən hesab olunan Balboa Teatrında ulu öndər Heydər Əliyevin xatirəsinə həsr olunmuş konsert keçirildi. Tədbirdə 3000 nəfərə yaxın şəhər sakini iştirak edirdi. Tədbirdə çıxış edən San Dieqo Vilayətinin Nəzarətçilər Şurasının üzvü Ron Roberts 10 mayın San Dieqo Vilayətində "Azərbaycan Musiqisi Günü" elan edilməsinə dair bəyannaməni təqdim etdi.

Səfər çərçivəsində keçirilən tədbirlərdə nümayəndə heyətinin rəhbəri tərəfindən çıxışlar edilmiş, Azərbaycanın qədim dövlətçilik ənənələrindən, müstəqilliyinin bərpasından, ümummilli lider Heydər Əliyevin hakimiyyətə qayıdışından sonra ölkənin dərin böhrandan qurtulmasından, Prezident İlham Əliyevin rəhbərliyi altında bu gün Azərbaycanın sabitliyi və öz tolerantlığı ilə çoxlarına nümunə olan güclü bir dövlətə çevrilməsindən, Bakı və San Dieqo şəhərləri arasında yaradılmış əlaqələrin Azərbaycan-ABŞ tərəfdaşlığına və iki xalqın yaxınlaşmasına xüsusi dinamika verməsindən danışılmışdır. Keçirilən bütün rəsmi görüşlərin sonunda Azərbaycanla bağlı xatirə hədiyyələri təqdim olunmuşdur. Azərbaycanla bağlı keçirilən tədbirlər Los Anceles və San Dieqo şəhərlərində pozitiv əks-səda doğurmuş, şəhər sakinlərinin böyük marağına səbəb olmuşdur.

## Tərəqqinin davamlılığının möhkəm əsasları yaradılıb

Respublikamızda mövcud olan dövlət-din münasibətləri, dinlərarası dialoq, dinlərarası tolerantlıq sahəsində dövlət siyasəti rayon ərazisində də uğurla həyata keçirilir. Nəsimi rayonunda Hacı Əjdərbəy məscidi, Məşədi Dadaş məscidi və Kərbəlayi Abdulla məscidi müsəlman dini icmaları, Dağ yəhudilərinin, Avropa yəhudilərinin və Gürcü yəhudilərinin dini icmaları, Rus Pravoslav Kilsəsinin Bakı və Azərbaycan Yeparxiyası qurumu, "Yeni Həyat" Xristian incil dini icması və Alban-Udi Xristian dini icması və Bakı şəhəri Bəhai dini icması fəaliyyət göstərir. Bütün dini icmalar dostluq və sülh şəraitində fəaliyyət göstərir, rayonda tolerantlıq inkişaf edir. Rayonda ənənəvi dinlərin normal və bərabər fəaliyyət göstərmələri üçün hər cür şərait yaradılmışdır. 2017-ci ildə dini bayramlar, ayinlər və yas mərasimlərinin milli-mənəvi dəyərlərimizə və ənənələrimizə uyğun şəkildə keçirilməsi məqsədilə bir sıra tədbirlər reallaşdırılmışdır.

20 Yanvar, Xocalı faciəsi, Novruz bayramı, Çernobıl faciəsi, 9 May Qələbə günləri, 28 May Respublika günü, Ramazan və Qurban bayramları və digər əlamətdar günlər ərəfəsində sakinlərə 14200-dən çox ərzaq payı və maddi yardımlar göstərilmişdir. Dövlət qayğısı çərçivəsində 2017-ci ildə imtiyazlı şəxslərə mənzillər ayrılmışdır. 6 ailəyə, o cümlədən 1 şəhid Milli Qəhrəman ailəsinə, 2 Qarabağ müharibəsi əlili ailəsinə, 3 nəfər 20 Yanvar əlili ailəsinə mənzillər verilmişdir.

Asayişin təmin edilməsi, vətəndaşların hüquq və azadlıqlarının, qanuni mənafelərinin qorunması, təhlükəsizlik və mülki müdafiə sahələrində məqsədyönlü tədbirlər həyata keçirilmişdir. Ötən dövrdə rayonun hüquq mühafizə orqanları tərəfindən ictimai-siyasi sabitliyin, asayişin təmin olunması, insan hüquq və azadlıqlarının qorunması, cinayətlərin qarşısının alınması və açılması sahəsində üzərlərinə düşən vəzifələri layiqincə yerinə yetirməyə nail olmuşlar. Baş vermiş cinayətlərin açılması ötən illə müqayisədə yaxşılaşaraq 79,2 faiz, o cümlədən ağır və xüsusilə ağır növlərin açılması 78,5 faiz təşkil etmişdir. Qəsdən adamöldürmə, avtonəqliyyatın qaçırılması, mənimsəmə və israfetmə cinayətlərinin, ölümlə nəticələnən yol nəqliyyat hadisələrinin hamısı açılmışdır. 2017-ci il ərzində qanunsuz küçə ticarətinə qarşı mübarizə gücləndirilmiş, bu sahə üzrə 2352 inzibati protokol yazılaraq xəta törətmiş şəxslər cərimə edilmişdir.

Azərbaycan Respublikası Prezidentinin "Açıq Hökumətin təşviqinə dair 2016-2018-ci illər üçün Milli Fəaliyyət Planı"ndan irəli gələn vəzifələrin icrası ilə bağlı Nəsimi Rayon İcra Hakimiyyəti tərəfindən 2017-ci il ərzində məqsədyönlü tədbirlərin həyata keçirilməsi davam etdirilmişdir. Şəffaflığın artırılması və açıq hökumətin təşviqi sahəsində müəyyən edilmiş tədbirlərlə bağlı informasiya əldə edilməsi, rayon icra hakimiyyətinin öz fəaliyyəti barədə ictimaiyyətə müntəzəm məlumatların verilməsi, o cümlədən məlumatların mütəmadi olaraq yeniləşmiş əsaslarla İH-nin internet saytında yerləşdirilməsi, rayon icra hakimiyyətinin illik, rüblük hesabatlarının internet səhifəsində açılması həyata keçirilmişdir.

RİH başçısının yerlərdə keçirilən səyyar qəbullarında, sakinlərlə görüşlərdə, müşavirələrdə və ictimaiyyət nümayəndələrinin iştirakı ilə keçirilən geniş yığıncaqlarda rayon ərazisində ictimai maraq kəsb edən məsələlər geniş müzakirə olunur, rəy və təkliflər öyrənilir, müvafiq qərarlar verilir. 2017-ci ildə aşkarlığı və şəffaflığı təmin etmək məqsədilə kütləvi informasiya vasitələrinin imkanlarından geniş istifadə edilərək Nəsimi rayonu üzrə görülmüş işlər barədə ictimaiyyətə məlumatların çatdırılması davam etdirilmişdir.

"Vətəndaşların müraciətləri haqqında" Azərbaycan Respublikasının Qanunu ilə müəyyən edilmiş qaydalara əməl edilməklə Nəsimi Rayon İcra Hakimiyyəti başçısı Aparatı və sahə inzibati ərazi dairəsi üzrə nümayəndəliklərdə vətəndaşlara yazılı və şifahi şəkildə təkliflər vermək, ərizə ilə müraciət etmək hüquqlarının həyata keçirilməsi üçün zəruri şərait təmin edilmişdir. 2017-ci il ərzində rayon icra hakimiyyətinə vətəndaşlardan 2826 ərizə və müraciət daxil olmuşdur. Müraciətlərin məzmunu ilə bağlı aparılmış təhlillər göstərir ki, mənzil məsələləri, xüsusilə mənzil şəraitinin yaxşılaşdırılması və mənzil ilə təmin olunma, şəhərsalma, tikinti-təmirə aid ərizələr çoxluq təşkil edərək ümumi müraciətlərin 60 faizini təşkil etmişdir. 2017-ci ildə əhalinin sosial müdafiəsi, mənzil-məişət, birdəfəlik maddi yardım və sairə ilə bağlı məsələlər barədə müraciətləri diqqət mərkəzində saxlanılmışdır. Əhalinin aztəminatlı təbəqəsinə dövlət qayğısı çərçivəsində rayon icra hakimiyyəti tərəfindən 14200-dən çox vətəndaşa kömək göstərilmişdir. İl ərzində Heydər Əliyev Fondu tərəfindən Nəsimi rayonunda aztəminatlı təbəqəyə, kimsəsizlərə, valideyn himayəsindən məhrum olmuş uşaqlara yetirilən diqqət və qayğı ictimaiyyətin razılığına səbəb olmuşdur.

Göründüyü kimi, 2017-ci il Nəsimi rayonunun və sakinlərinin həyatında əlamətdar hadisələrlə zəngin olmuş, sosial-iqtisadi inkişafın davamlılığı təmin edilmişdir. Şübhəsiz ki, bu əsaslı bünövrə 2018-ci ilin də uğurla keçəcəyinə etibarlı zəmin yaradır.

*Elnur HADIYEV,*
*"Azərbaycan"*